***Federal Miqrasiya və Qaçqınlar İdarəsinin göndərdiyi/verdiyi qərarın ölkədən xaric olunma barədə təhdid və ya da ölkədən xaric olunma barədə sərəncamı ehtiva etdiyi təqdirdə aşağıdakı məlumatları nəzərə almaq xahiş olunur:***

## Oturum haqqında qanuna (AufenthG) əsasən önəmli məlumatlar

### Oturum haqqında qanunun 60a paraqrafının 2d bəndinə əsasən təlimat

Ölkədən xaric olunmaya təsir edə biləcək bir xəstəliyə malik olduğunuz təqdirdə, bunu həkim arayışı vasitəsilə təsdiq etməniz xahiş olunur. Siz bu həkim arayışını Sizin üçün məsuliyyət daşıyan əcnəbilərlə iş üzrə idarəyə dərhal təqdim etmə öhdəliyinə maliksiniz. „Dərhal“ anlayışına əməl olunması üçün həkim arayışının verildiyi tarix həlledici rol oynayır. Sizin azyaşlı uşaqlarınız/uşağınızın xaric olunmasına təsir edə biləcək həkim arayışlarının verildiyi təqdirdə, bunları da təqdim etməniz tələb olunur.
Bu arayışı təqdim etmədiyiniz ya da gec təqdim etdiyiniz təqdirdə, həkim arayışında öz əksini tapmış diaqnoz ölkədən xaric olunma zamanı artıq nəzərə alına bilməyəcək. Sizin və azyaşlı uşaqlarınızdan birinin xəstəliyi barədə verdiyiniz məlumat ölkədən xaric olunma zamanı dinlənilməyəcək. Bu həm də arayışı dərhal təqdim etdiyiniz, lakin onun qanuni tələblərə uyğun gəlmədiyi hallara da şamil olunur.
Məsuliyyət daşıyan əcnəbilərlə iş üzrə idarənin haqqında arayış verilən xəstəlik barədə şübhələri olduğu təqdirdə, o həkim və ya da dövlət həkimi tərəfindən müayinə olunma barədə sərəncam verə bilər. Yetərli səbəb olmadan bu sərəncama riayət etmədiyiniz təqdirdə, məsuliyyət daşıyan dövlət idarəsi ölkədən xaric olunma zamanı haqqında məlumat verilən xəstəliyi nəzərə almamaq hüququna malikdir.

### Oturum haqqında qanunun 50-ci paraqrafının 4-cü bəndinə əsasən təlimat

Siz ölkəni tərketmə öhdəliyinə malik olduğunuzdan oturum haqqında qanunun 50-ci paraqrafının 4-cü bəndinə əsasən mənzilin hər dəfə dəyişilməsi və əcnəbilərlə iş üzrə idarənin məsuliyyət daşıdığı rayonu üç gündən çox bir müddətə tərk etməzdən əvvəl əcnəbilərlə iş üzrə müvafiq idarəyə bu barədə məlumat vermə öhdəliyinə maliksiniz. Bu öhdəliyi pozduğunuz təqdirdə ölkədən xaric olunma ilə əlaqədar həbs oluna biləcəyinizi nəzərə almalısınız (oturum haqqında qanunun 62-ci maddəsinin 3-cü bəndi, say 2).